*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    7 oktyabr 2015-ci il № 76 (1992)    Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Rusiya Federasiyası Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev qubernator Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Sankt-Peterburq şəhəri ilə gələcək əməkdaşlığın möhkəmləndirilməsi və bütövlükdə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İsrail Dövlətinin sabiq Prezidenti Şimon Peresi qəbul edib.***

***Görüşdə Prezident İlham Əliyev ilə Şimon Peresin bundan əvvəl Bakıda və Davosda keçirilən görüşləri məmnunluqla xatırlandı.***

***İsrail Dövlətinin sabiq Prezidenti ölkəmizə budəfəki səfəri zamanı paytaxt Bakıda böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.***

***Söhbət zamanı Azərbaycan ilə İsrail arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Türkiyə Respublikasının gömrük və ticarət naziri Cenap Aşçının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dünyada gedən maliyyə-iqtisadi böhran şəraitində ölkələrimizin gömrük orqanları qarşısında mühüm vəzifələrin dayandığını deyən Prezident İlham Əliyev iqtisadi böhranın nəticələrinin araşdırılması, təhlili və gömrük orqanlarının işinin təkmilləşdirilməsində birgə fəaliyyət göstərməyin vacibliyini qeyd etdi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paskal Mönyeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.***

***İkitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və eləcə də Heydər Əliyev Fondunun bu istiqamətdəki fəaliyyətinin önəmini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin geniş sahələri əhatə etməsindən və əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, texnologiya, biznes, mədəniyyət və digər sahələrdə strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu ifadə etdi.***

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini və daim möhkəmləndiyini dedi. Hərbi sahədə əlaqələrimizin çox yaxşı tarixə malik olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin müstəqilliyi dövründə əməkdaşlığımızın daha da genişləndiyini vurğulayaraq son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan ilə Türkiyənin dünya miqyasında ən yaxın dövlətlər olduğunu deyən Prezident İlham Əliyev ölkələrimizin bir-birini bütün məsələlərdə daim dəstəkləməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılacağına əminliyini ifadə etdi.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar qardaşlıq təməli üzərində həyata keçirilən birgə təlimlərin böyük əhəmiyyət daşıdığını qeyd etdi. O, həm Türkiyədə, həm də Azərbaycanda keçirilən təlimlər zamanı müxtəlif sahələr üzrə nümunəvi iş birliyinə nail olunduğunu vurğuladı. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunan Hulusi Akar Türkiyə ilə Azərbaycan arasında əlaqələrin dünyada misli olmadığını və böyük önəm daşıdığını dedi. O, Türkiyə və Azərbaycan prezidentlərinin rəhbərliyi ilə bu əlaqələrin qarşıdakı illərdə daha da genişləndiriləcəyini əminliklə qeyd etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev:
# Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan çox zəngin ölkəyə çevriləcək

***"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 23-cü cildi çapdan çıxıb.***

AZƏRTAC xəbər verir ki, nəşrin bu cildi Azərbaycan Prezidenti İlham Əliyevin Şamaxı rayonuna səfərinə dair materiallarla başlayır.

Dövlətimizin başçısı sərlövhəyə çıxarılmış fikirlərini də 2007-ci il martın 1-də Şamaxıda Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimində iştirakından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündəki nitqində söyləyib. Prezident deyib: "Azərbaycanın beynəlxalq önəmi artır və biz regional çərçivədə daha fəal rol oynayırıq. Bizim təşəbbüsümüzlə həyata keçirilən transmilli layihələr həm ölkəmizin iqtisadiyyatını gücləndirir, həm də beynəlxalq imicini, önəmini artırır. Bu halda, bütün məsələlər daha da asanlıqla öz həllini tapacaqdır. Həm xarici siyasətdə, həm daxili siyasətdə, həm iqtisadi inkişafda, regionların sosial-iqtisadi inkişafında, müxtəlif sosial məsələlərin həllində - təhsil, səhiyyə, mədəniyyət, ekologiyada, bütün sahələrdə proqramlar var və bunlar ardıcıllıqla icra olunur. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan çox zəngin ölkəyə çevriləcək, Azərbaycan vətəndaşları daha da yaxşı yaşayacaqlar. Mənim məqsədim budur! Mən istəyirəm ki, hər bir insan yaxşı yaşasın, hər bir insanın maddi imkanları artsın, uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər yaxşı məktəblərdə dərs desinlər. Həkimlər gözəl xəstəxanalarda işləsinlər və insanlarımız da sağlam olsunlar".

Çoxcildliyin bu kitabına daxil olan materiallar 2007-ci ilin martından aprelinədək olan dövrü əhatə edir.

Bu cilddə Azərbaycan Prezidentinin respublikamızın bölgələrinə səfərləri, ölkəmizin iqtisadi, siyasi, mədəni həyatına, regionların sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş çıxış və nitqləri, tapşırıq və tövsiyələri əksini tapıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu nəşrində Prezident İlham Əliyevin Tacikistana, Rusiya Federasiyasına, Koreya Respublikasına rəsmi səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqları, ölkələr arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə və genişləndirilməsinə rəvac verən nitqləri və çıxışları, həmçinin, Bakıya rəsmi səfərə gələn Polşa Prezidenti Lex Kaçinski ilə görüşlərinə, danışıqlarına dair materiallar toplanıb.

Bu cilddə, həmçinin, Prezident İlham Əliyevin Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda və Moskvada Mstislav Rostropoviçin 80 illik yubileyi şərəfinə təşkil edilmiş rəsmi qəbulda nitqləri, KİV-lərə müsahibələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirləri də yer alıb.

Nəşrdə dövlətimizin başçısının Bakıda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrini, eləcə də ölkəmizə səfər etmiş ayrı-ayrı dövlətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə, habelə ümumxalq tədbirlərində iştirakına dair materiallar, 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar xalqımıza müraciəti, eləcə də bəyanatları və məktubları da dərc olunub.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılmış 23-cü cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) materiallarından istifadə olunub.

## Aleksandr Murinson:
# Ermənistan beynəlxalq hüquqa saymazyana yanaşır

***"The Washington Times" qəzetində Beqin-Sadat Strateji Araşdırmalar Mərkəzinin eksperti (ABŞ) Aleksandr Murinsonun "Bir daha Dağlıq Qarabağ məsələsi barədə" sərlövhəli məqaləsi dərc olunub. Müəllif oxuculara Ermənistanın beynəlxalq hüquqa və beynəlxalq birliyin rəyinə saymazyana yanaşması barədə ətraflı informasiya təqdim edir. Ekspert yazır ki, ermənilər 1992-1993-cü illərdə təkcə Azərbaycanın bütünlüklə Dağlıq Qarabağ regionunu deyil, həm də ətraf yeddi rayonu işğal ediblər. Bununla da məcburi köçkün böhranı yaradıblar.***

Sonra A.Murinson BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını pisləyən və Ermənistan silahlı qüvvələrinin bu ərazidən dərhal və qeyd-şərtsiz çıxarılmasını, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasına şəraitin yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli 4 qətnaməsi barədə məlumat verib. Müəllif yazır ki, Ermənistanın işğalçı olması faktı təkzibedilməzdir. O, "Çiraqov və başqaları Ermənistan əleyhinə" işi üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarını da şərh edib. Qərara görə, hazırda Ermənistan Dağlıq Qarabağa və ətraf ərazilərə nəzarət edir. Öz növbəsində Azərbaycan bəyanatla çıxış edərək, növbəti dəfə Ermənistanı öz qoşunlarını Qarabağdan dərhal və qeyd-şərtsiz çıxarmağa çağırıb. A.Murinson yazır ki, Ermənistan XİN-in başçısı Edvard Nalbandyan buna belə cavab verib: "Münaqişə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən deyil, ATƏT-in Minsk Qrupunun həmsədrləri təsisatı tərəfindən həll edilir". Ekspertin fikrincə, bu sübut edir ki, Ermənistan beynəlxalq orqanların qərarlarına əsla əhəmiyyət vermir. A.Murinson sonda yazır ki, Azərbaycanın qaydalara riayət etməsinə, onun tələblərinin məhkəmə tərəfindən təmin edilməsinə və ədalətli sülhə nail olmağa çalışmasına baxmayaraq, Ermənistan qəsbkar siyasətini davam etdirir, qanunlara məhəl qoymur, beynəlxalq təsisatları, qanunun aliliyini tanımır.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb







***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarla görüşüb.***




Türkiyəli qonaqlardan ibarət nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını və Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib və protokola uyğun olaraq "Şərəf Kitabı" imzalanıb.

Azərbaycanın Müdafiə naziri ilə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında əvvəl təkbətək, sonra isə geniş tərkibdə görüş keçirilib.

General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq ölkələrimiz arasında hərbi əməkdaşlığın ikitərəfli və NATO vasitəsilə həyata keçirilən sülhməramlı əməliyyatlar çərçivəsində aparıldığını, strateji tərəfdaşlığın daim inkişaf etdiyini, dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Müdafiə naziri bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistan ilə Azərbaycan arasında münaqişənin regional sabitliyə əsas təhlükə yaratdığını, qarşı tərəfin cəbhədə gərginliyi artırmaq cəhdlərini, Azərbaycan əsgərinin silahı



gücünə döyüşlərdə düşmən tərəfinin xeyli sayda itki verməsini diqqətə çatdırıb.

Son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd edən nazir hər iki ölkənin prezidentlərinin dəstəyi ilə bu fəaliyyətlərin planlı surətdə davam etdirilməsinin və təlimlərin sayının artırılmasının vacibliyini xüsusi vurğulayıb.

"Hərbi təhsil sahəsində əldə edilən nailiyyətlər, təcrübə mübadiləsinin davamlı olması bizi çox sevindirir. Bu illər ərzində Türkiyənin hərbi məktəblərində 6000 nəfərdən çox Azərbaycan zabiti təhsil alıb və indi də qardaş ölkədə 200 nəfərədək hərbi qulluqçumuz müxtəlif ixtisaslar üzrə hazırlıq keçir. Bu, Silahlı Qüvvələrimizin möhkəmlənməsində böyük rol oynayır, onun inkişaf etməsinə təkan verən amillərdəndir", - deyə general-polkovnik Zakir Həsənov qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşündən məmnunluq hissi ilə danışan ordu generalı H.Akar dövlətlərimizin əlaqələrinin qədim tarixi kökə, mehriban dostluq ənənələrinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu bildirib. "Hərbi əməkdaşlığımız inkişaf etməli, möhkəmlənməli və davamlı olmalıdır. Bu cür qarşılıqlı əməkdaşlıq və birliyimiz heç bir digər ölkəyə qarşı deyil, yalnız çətin və qaynar bölgələrdə yerləşən ölkələrimizin təhlükəsizliyinin təmin olunması məqsədini daşıyır", - deyə H.Akar bildirib.

Sonra Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin perspektivləri, hərbi, hərbi texniki, hərbi təhsil sahəsində əməkdaşlıq imkanları, Yüksək Səviyyəli Hərbi Dialoq çərçivəsində fəaliyyətlərin genişləndirilməsi, birgə planların işlənilməsi, qarşılıqlı səfərlərin təşkili, o cümlədən maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Ali Baş Komandanın adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölkələrimiz arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə ordu generalı H.Akar Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Hərbi Prokurorluqla birgə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə tədbir keçirib






***Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun 2015-ci ilə dair birgə tədbirlər planına əsasən, Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev və Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.***

Birlik, birləşmə və hərbi hissələrdə müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, o cümlədən bilavasitə müdafiənin ön xəttində yerləşən hərbi hissələrin şəxsi heyətilə görüşlər keçirilib.

Ədliyyə general-leytenantı X.Vəliyev çıxışında döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması məqsədilə hərbi kollektivlərdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulmuş tələblər və nizamnamələr çərçivəsində qurulmasının vacibliyini xüsusi qeyd edib.



Keçirilən görüşlərdə şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət və hadisələrin təhlili, nəticələrindən asılı olaraq müvafiq tədbirlərin görülməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.

Görüşlər zamanı müxtəlif mövzularda təkliflər səsləndirilib və hərbi qulluqçuları maraqlandıran bir sıra suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Erməni hərbi qulluqçuları arasında növbəti insident baş verib

Ermənistanın bəzi elektron kütləvi informasiya vasitələri Naxçıvan Muxtar Respublikası istiqamətində yerləşən qoşunların təmas xəttində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin atəşkəs rejimini pozaraq dövlət sərhədində gərginlik yaratması barədə dezinformasiya xarakterli məlumat yayıblar.

Həqiqətdə isə müşahidə zamanı atışmanın qarşı tərəfin hərbi qulluqçuları arasında baş verməsi məlum olub. Oktyabrın 1-də saat 23.00 radələrində ön xətdə yerləşən düşmən mövqelərindən şəxsi heyətin bir-birinə qarşı təhqiramiz qışqırtısı və atıcı silahlardan on dəfəyədək atəş səsi eşidilib. Bundan sonra saat 23.40 radələrində düşmənin həmin mövqeyinə komandanlığın UAZ avtomobilində gəlməsi, səhər saatlarında isə 5 nəfərə qədər hərbi qulluqçunun avtomobilə zorla mindirilməsi və avtomobilin alay mərkəzinə doğru hərəkəti müşahidə edilib.

Bu, ordusunda baş verən neqativ hadisələri öz xalqından gizlətmək məqsədilə Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı növbəti təxribatıdır.

Müdafiə Nazirliyi bildirir ki, bu istiqamətdəki bölmələrimiz yüksəkliklərdə yerləşən mövqelərdən əməliyyat şəraitinə tam nəzarət edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 73 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Sarıcalı, Cəvahirli, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 82 dəfə atəş zərbəsi endirib.

# “Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər”

## Müdafiə Nazirliyi ilə Gədəbəy rayon İcra Hakimiyyəti birgə tədbir keçirib

***Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən Komanda Qərargah Hərbi Oyunları Silahlı Qüvvələrimizin gücünü bir daha nümayiş etdirdi.***

Möhtərəm Prezidentimizin tapşırığına əsasən, irimiqyaslı təlimlər zamanı Müdafiə Nazirliyinin rəhbər heyəti ilə cəbhəboyu zonada yerləşən rayonların icra hakimiyyəti başçılarının müdafiə və təhlükəsizlik məsələləri üzrə qarşılıqlı əlaqələrin təşkili mövzusunda birgə müşavirəsi keçirildi. Tədbirdə cəbhədəki real vəziyyət təhlil olundu, gərginliyin artması zamanı yarana biləcək təhdid və riskləri əvvəlcədən qabaqlamaq məqsədilə müəyyən problemlərin və onların həllinin tapılması istiqamətində müzakirələr aparıldı.

Müdafiə Nazirliyinin Gədəbəy rayon İcra Hakimiyyəti ilə birlikdə "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" devizi altında təşkil etdiyi kütləvi hərbi vətənpərvərlik bayramı həmin müşavirədən sonra respublikada keçirilən və xalqla ordunun birliyinin nümayişinə çevrilən tədbirlərdəndir.



Müdafiə Nazirliyi, rayon İcra Hakimiyyəti, eləcə də ictimaiyyətin nümayəndələri əvvəlcə Heydər Əliyev parkına gedərək xalqımızın ümummilli liderinin xatirəsini hörmət və ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar. 1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olan həmvətənlərimizin şərəfinə ucaldılmış abidə kompleksi və Şəhidlər xiyabanı ziyarət edilib.

Müdafiə Nazirliyinin zabiti, hərbi vətənpərvərlik bayramının ssenari müəllifi və quruluşçu rejissoru polkovnik Abdulla Qurbani belə bir möhtəşəm tədbirin Gədəbəy rayonunda keçirilməsinin təsadüfi olmadığını vurğulayıb. Qeyd olunub ki, gədəbəylilər bütün zamanlarda Vətənə, xalqa, dövlətə sədaqət nümunələri göstərmiş, torpağı əkib-becərdikləri kimi onu həm də mərdliklə qorumuşlar.

Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarov tədbir iştirakçılarını salamlayaraq ordu mövzusunun, vətənpərvərlik tərbiyəsi işinin bu gün Gədəbəydə də əsas mövzu olduğunu nəzərə çatdırıb. O qeyd edib ki, həm ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə, həm də bu gün bu mövzu Gədəbəy rayonunda prioritetdir. "Hazırda bütün qoşun növlərində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində yüzlərlə rayon sakini öz əsgəri borcunu şərəflə yerinə yetirir, Vətənə, xalqa xidmət peşəsinə, hərbi ixtisaslara böyük həvəslə yiyələnirlər. İcra başçısı onu da qeyd edib ki, ermənilərin gözü həmişə Gədəbəy rayonunda da olub. 1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycandan məcburi qovulmasına nail olan ermənilər 1968-1969-cu illərdə himayədarlarının köməyi ilə Şınıx bölgəsində yerləşən Qaravəllilər, Hacılar, Göyəli kəndlərinə məxsus 730 hektar torpağın zəbt olunmasına, Tağılar kəndinin əhalisinin isə öz doğma yurd-yuvalarından köçürülməsinə nail olsalar da, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan hakimiyyətinə gəlişi ilə bu hadisələrə dərhal müdaxilə edilmiş və



ulu öndərimizin apardığı məqsədyönlü siyasət nəticəsində məsələ öz operativ həllini tapmış və digər rayonlarımızda olduğu kimi, Gədəbəydə də geniş quruculuq-abadlıq işlərinə başlanılmışdır.

Gədəbəylilər keçən əsrin əvvəllərindən erməni daşnaklarına qarşı mübarizədə, Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin qazanılmasında, eləcə də Qarabağ müharibəsində öz layiqli sözlərini demişlər. İki nəfər Sovet İttifaqı Qəhrəmanı, dörd nəfər Azərbaycanın Milli Qəhrəmanı əslən Gədəbəy rayonundandır".

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki,ulu öndərimiz Kremldən uzaqlaşdırıldıqdan sonra Gədəbəy rayonu yenidən ermənilərin hədəfinə çevrilib. Şınıx bölgəsinin iki kəndi, Motudərə və Qasımağalı kəndləri yandırılıb. Lakin buna baxmayaraq ordumuzun mərd və mübariz əsgərləri, eləcə də Gədəbəyin igid oğulları erməni quldurlarını dərhal Başkənd kəndindən və Şınıx bölgəsinin işğal edilmiş hissələrindən tamamilə təmizləyiblər.

Ulu öndərimizin yenidən Azərbaycan hakimiyyətinə qayıdışı və Prezident seçilməsi gədəbəylilərin də vətənpərvərlik ruhunu daha da artırıb və onlar həm ön, həm də arxa cəbhədə yenə öz xidmətləri ilə Vətənə bağlılıqlarını bir daha sübut ediblər.

Gədəbəy rayonu bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında yeni uğurlara doğru inamla irəliləyir.



Tədbir iştirakçılarını Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bundan sonra da Gədəbəyin müdafiəsi üçün səylər göstəriləcəyini və tezliklə işğal altında olan torpaqlarımızın azad ediləcəyini qeyd edib.

Polkovnik Oruc Abdullayev Azərbaycan əsgərinin digər bölgələrdə olduğu kimi, bu bölgənin də keşiyində ayıq-sayıq dayandığını, hər gün atəşkəsi bir neçə dəfə pozan düşmənin vaxtında susdurulduğunu, son vaxtlar isə qarşı tərəfin həm texnika, həm də canlı qüvvə sarıdan xeyli itki verdiyini bildirib.

Zabit rayon rəhbərliyi və ictimaiyyətin orduya göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib, onları əmin edib ki, Gədəbəy rayonu bundan sonra da etibarla qorunacaq, təhlükəsizlik və əmin-amanlıq yüksək səviyyədə təmin ediləcəkdir.

Teatrlaşdırılmış kütləvi mərasim videoçarxların, bədii özfəaliyyət kollektivlərinin, incəsənət ustalarının, Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının çıxışları ilə davam edib. Ön səngərdən gələn əsgərlər alqışlarla qarşılanıb. Ağsaqqallar onlara xeyir-dua verib, xidmətləri yüksək qiymətləndirilib. Döyüş və mənəvi-psixoloji hazırlıqda fərqlənən hərbçilərə, ön səngərdən gələn döyüşçülərə rayonun İcra Hakimiyyətinin təsis etdiyi fəxri nişanlar və fərmanlar təqdim edilib.



Tədbirin sonunda Oğuz elinin ağsaqqalı Dədə Qorqudun gəlişi ağsaqqalları köylərə, el-obanı bir ocaq başına yığmağa, camaatı yağılarla savaşa ruhlandırmağa, qələbə tonqalı çatmaq üçün tədarük görməyə, ərənləri isə ön səngərə, sonuncu qələbə ilə nəticələnəcək müqəddəs savaşa atılmağa, Xankəndi, Şuşa, Laçın və digər işğal altında olan torpaqlarımıza qələbə bayrağı sancmağa səsləməsi böyük alqışlara səbəb olub.

Mərasimdən sonra Heydər Əliyev parkında Azərbaycan əsgəri tədbir iştirakçılarını əsgər süfrəsinə dəvət edib. Burada mindən çox tamaşaçı əsgər yeməyinin, əsgər təamının dadına baxıb.

Belə tədbirlər davam edir. Bu günlərdə Beyləqan, Ağdaş, Ağcabədi, Füzuli və digər bölgələrimizdə də xalqla ordunun birliyinə həsr olunmuş kütləvi hərbi vətənpərvərlik bayramları keçiriləcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Elşən ƏLİYEVİNDİR**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Hərbi Hava Qüvvələrinin bazasında olublar

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunan hərbi attaşeləri oktyabrın 5-də Hərbi Hava Qüvvələrinin aviabazasında olublar.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, on beş dövləti təmsil edən hərbi attaşelərə əvvəlcə hərbi hissə, onun yaranma tarixi barədə ümumi brifinq təqdim edilib. Aviabazada qonaqlar şəxsi heyət üçün yaradılan şərait, uçuş və texniki heyətlə tanış olub, əsgər yeməkxanaları və yataqxanalarına, məşğələ otaqlarına da baxıblar. Silahlanmada olan hərbi texnika ilə tanış olan qonaqlar şəxsi heyətin döyüş hazırlığı məşqlərini də izləyiblər.

Zabit yeməkanasında nahar edən hərbi attaşelər hərbi hissədə yaradılmış xidmət və məişət şəraitindən, döyüş hazırlığı və tədrisin səviyyəsindən məmnun qalıblar.

Qonaqlar səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Silahlı Qüvvələrdə “NATO Günləri” keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, oktyabrın 6-dan Bakı şəhərində NATO-nun Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupu tərəfindən Silahlı Qüvvələrdə "NATO Günləri" tədbiri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-leytenant Ali Çetinkayanın (Türkiyə Respublikası) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olacaq, brifinqlər təqdim edəcək və müzakirələr aparacaqlar.

Tədbir oktyabrın 8-dək davam edəcək.

# Naxçıvanda komanda-qərargah təlimləri başlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi Silahlı Qüvvələrin hazırlığı planına əsasən, oktyabrın 5-dən Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusu ilə komanda-qərargah təlimləri başlayıb.***

Sentyabrın 6-dan 13-dək keçirilmiş komanda-qərargah hərbi oyunlarında icra edilən əməliyyat tapşırıqlarının davamı kimi nəzərdə tutulan bu təlimlərdə Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüş fəaliyyətlərinin qərargahlar tərəfindən idarə olunması bacarıqları yoxlanılacaq.

Təlim tapşırıqlarının işlənib hazırlanması ilə yanaşı, mürəkkəb əməliyyat şəraitində qoşunların idarə edilməsi, müxtəlif səviyyəli qərargahların uzlaşması, döyüş xidmətinin təşkili və aparılmasının yoxlanılması da nəzərdə tutulur.

Komanda-qərargah təlimləri oktyabrın 8-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu 1480 PKK terrorçusunu zərərsizləşdirib



Türkiyə ordusu 90 gün ərzində keçirdiyi hərbi əməliyyatlar nəticəsində 1480 PKK terrorçusunu zərərsizləşdirib. Bu müddət ərzində 140 hərbçi, polis və mühafizə xidmətinin əməkdaşı şəhid olub. Terrorçuların törətdiyi partlayışlar və silahlı basqınlar zamanı 37 mülki şəxs ölüb, 464 nəfər yaralanıb. Ölkə daxilində keçirilən əməliyyatlarda 204 PKK terrorçusu öldürülüb, 123-ü həbs edilib. Ümumilikdə 2799 nəfər terrorçuluqda və sabitliyin pozulmasında iştirakına görə şübhəli şəxs qismində saxlanılıb.

## Qırğızıstanda keçirilən seçkilərdə 6 partiya parlamentdə yer əldə edib



Oktyabrın 4-də Qırğızıstan parlamenti - Joqorku Keneşə keçirilən seçkilər başa çatıb.

Seçkilərin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında Qırğızıstanın Seçkilər və Referendumlar üzrə Mərkəzi Komissiyasının (SRMK) sədri Tuyqunalı Abdraimov bildirib ki, seçicilərin 60 faizi səsvermədə iştirak edib, bu da seçkilərin baş tutması deməkdir. Onun sözlərinə görə seçkilərdə altı siyasi partiya qalib gəlib. SRMK-nın ilkin məlumatlarına görə, Qırğızıstan Sosial-Demokrat Partiyası 27,45 faiz səs toplayaraq liderdir. "Respublika - Ata Jurt" partiyası 20,13, "Qırğızıstan" - 12,81, "Onuquu-Proqres" - 9,3, "Bir Bol" - 8,44, "Ata Meken" - 7,74 səs qazanıb. Beləliklə, ilkin nəticələrə əsasən, bu partiyalar parlamentdə yer əldə ediblər. Digər partiyalar isə 7 faizlik həddi keçə bilməyiblər.

## Portuqaliyada keçirilmiş seçkilərdə ölkənin hakim partiyası qalib gəlib



Oktyabrın 4-də Portuqaliya parlamentinə keçirilmiş seçkilərdə ölkənin hakim sosial demokrat partiyası - "Portuqaliya, irəli" 39 faizdən çox səslə qalib gəlib.

Baş nazir Pedru Pasuş Koelyonun rəhbərliyi altında fəaliyyət göstərəcək koalisiya yeni hökuməti formalaşdıracaq. Səslərin 31 faizini müxalif Sosialist partiyası, 9 faizini isə solçular qazanıb.

## Vyanada yüz mindən artıq insan miqrantlarla həmrəy olduqlarını nümayiş etdirib



Son həftələrdə Avropaya axın edən qaçqınlarla bağlı Avstriyanın paytaxtı Vyanada "Volkshilfe" xeyriyyə təşkilatının çağırışı ilə yürüş və konsert keçirilib. "Voices for refugees - Konzert für ein menschliches Europa" ("Qaçqınlar üçün səslər - insanpərvər Avropa naminə konsert") adlı tədbirdə 100 mindən artıq insan iştirak edib. Vyananın mərkəzində yerləşən Heldenplatz meydanında ölkə başçısı Haynts Fişer, hökumət rəsmiləri, xeyriyyə təşkilatlarının təmsilçiləri, ziyalılar, tanınmış idmançılar və incəsənət xadimləri çıxış edərək qaçqınlarla həmrəy olduqlarını bildiriblər. Bədii hissədə "Die Toten Hosen" rok qrupu başda olmaqla çoxlu sayda musiqiçilər və kabaretistlər səhnəyə çıxıblar.

## İndoneziyada yoxa çıxmış təyyarə cəngəllikdə tapılıb



Oktyabrın 2-də İndoneziyada radarlardan itmiş "Aviastar" şirkətinə məxsus təyyarə tapılıb. Aydın olub ki, o, çətin keçilən dağlıq ərazidə qəzaya uğrayıb.

Təyyarənin göyərtəsində olanların hamısı - üç ekipaj üzvü və ikisi uşaq olmaqla yeddi sərnişin həlak olub. Təyyarə üç volontyor tərəfindən tapılıb. İlkin ehtimala görə, layner vaxta qənaət etmək üçün marşrutu dəyişib.

İstintaq müddətində təyyarənin məxsus olduğu "Aviastar" şirkətinin bütün hava gəmilərinin uçuşlarının dayandırıldığı bildirilir.

Xəbər verdiyimiz kimi, "Twin Otter" təyyarəsi Masamba-Makassar reysini həyata keçirirdi. Onunla əlaqə nəzərdə tutulan eniş vaxtına 30 dəqiqə qalanda kəsilmişdi.

## Endi Uorholun “Mao” portretinə 40 milyon dollar qiymət qoyulub



Amerikalı rəssam Endi Uorholun fırçasına məxsus Mao Tsedunun məşhur portreti satışa çıxarılacaq. Sotheby's satış evinin nümayəndəsi portretin noyabrın 11-də auksiona qoyulacağını deyib. Onun ilkin qiyməti 40 milyon dollar təşkil edəcək.

"Mao" portreti 1972-ci ildə ABŞ Prezidenti Riçard Niksonun Çinə tarixi səfərindən sonra çəkilib. Bu rəsm əsəri Uorhol yaradıcılığında Merlin Manro, Elizabet Teylor, Elvis Presli, Vladimir Lenin, Riçard Nikson və digər tarixi şəxsiyyətlərin yer aldığı məşhurların portretləri silsiləsində ilk əsərlərdən olub.

Satışa qoyulmazdan öncə "Mao" portreti dünya turuna çıxarılacaq. Hazırda əsər Honkonqdakı ekspozisiyada yer alır. Daha sonra isə Londonda və Nyu-Yorkda nümayiş etdiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

*Beynəlxalq Müəllimlər Günü*

# Şərəfli peşə sahibləri

***Hər il oktyabrın 5-i bütün dünyada Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur. Bu tarixin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də imzalanıb. 1994-cü ildən isə bu tarix YUNESKO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilib. İndi dünyanın 100-dən çox ölkəsində müəllimlər peşə bayramlarını qeyd edirlər.***

Ümummilli lider Heydər ƏLİYEV:

*"Hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisi, ən lazımlısıdır".*



Müəllimlik dünyada ən çətin, eyni zamanda çox şərəfli və gözəl peşədir. Müəllimlər şagirdlərin dərin və hərtərəfli savad almaları, yaşadıqları dövrün sınaqlarından daim uğurla çıxmaları üçün bilik və bacarıqlarını sərf edirlər. Müəllim əməyi nəticəsində cəmiyyət formalaşır, geniş dünyagörüşlü, savadlı, bilikli, nümunəvi əxlaqa malik insanlar yetişir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir. Müəllimlər cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərin əməyi danılmazdır. Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirərdi, müəllimlərdən ürəkdolusu danışardı. O, öz müəllimini minnətdarlıqla xatırlayaraq deyərdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

Oktyabrın 5-də Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin, Hərbi Akademiyanın, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin və digər hərbi təhsil müəssisələrinin professor-müəllim heyəti iştirak edirdi.

Tədbirdə öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Hərbi Təhsil İdarəsinin rəisi polkovnik Murad Həmidov mərasimi açaraq Azərbaycan Respublikasının Müdafiə naziri və Silahlı Qüvvələrin Baş Qərargah rəisi adından Beynəlxalq Müəllimlər Günü münasibətilə zabit-müəllim heyətini təbrik etdi. Müasir dövrdə ölkəmizdə təhsilin keyfiyyətinin artırılmasından danışan natiq ulu öndərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyevin milli təhsilin inkişafına və müəllimlərimizin sosial vəziyyətinin yaxşılaşmasına göstərdiyi diqqət və qayğını xüsusi vurğuladı. O bildirdi ki, Azərbaycanda müəllimlərin nüfuzu ilbəil artır. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin peşəkar kadr heyətinin hazırlanmasında müəllimlərin rolunu qiymətləndirən idarə rəisi çıxışında Silahlı Qüvvələrin Hərbi Akademiyasında, xüsusi təyinatlı təhsil müəssisələrində aparılan işlərdən geniş söhbət açdı və müəllimlərin peşəkarlığının artırılması, təhsil sistemində dünya təcrübəsinə uyğun səmərəli tədbirlərin həyata keçirilməsində Müdafiə Nazirliyi rəhbərliyinin rolunu yüksək qiymətləndirdi. "Son illər professor-müəllim heyətinin nümayəndələri ABŞ-ın, Türkiyənin və Avropanın qabaqcıl hərbi təhsil müəssisələrində ixtisasartırma kurslarında iştirak edirlər. Gələcəkdə də bu proses davam etdiriləcəkdir. Heç şübhəsiz, hərbi təhsil müəssisələrinin kollektivi Azərbaycan Ordusunun güclənməsi üçün bütün imkanlarını səfərbər edəcək və layiqli zabitlərin yetişməsində öz töhfələrini əsirgəməyəcəklər".



Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllimi Sahib Əsədov da çıxışında hərbi təhsilə olan dövlət qayğısından danışdı: "Biz şərəfli bir peşənin sahibləriyik. Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır. Bu gün təhsil verdiyimiz kursantlar isə bizim gələcəyimizdir".

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi rəisinin əmrinə əsasən, Beynəlxalq Müəllimlər Günündə xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin xidmətdə fərqlənən bir qrup müəllimi fəxri fərman, təşəkkür və qiymətli hədiyyələrlə təltif olundu.

Tədbir Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının təşkil etdiyi konsert proqramı ilə yekunlaşdı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi məktəbdə əlamətdar gün qeyd edildi

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də Beynəlxalq Müəllimlər Günü təntənə ilə qeyd edildi.***

Tədbiri giriş sözü ilə məktəbin mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik-leytenant Mikayıl Hüseynov açaraq Silahlı Qüvvələrimiz üçün zabit kadrlarının hazırlanmasında məktəbin müəllimlərinin böyük xidməti olduğunu qeyd etdi:

- Müəllim təkcə bu və ya digər biliklər sistemini aşılamır, o həm də şəxsi nümunəsi ilə öyrənənin, bu anlamda kursantın dünyagörüşünün formalaşmasına təsir göstərə bilir. Danılmaz həqiqətdir ki, vətənpərvər müəllimdən dərs alanlar da Vətənin, torpağın müqəddəsliyini göz bəbəyi kimi qoruyacaq. Biz belə müəllimlərimizlə fəxr edirik.

Müəllimlər adından dosent Nizami Məhərrəmov çıxışında dünya siyasətində fenomenal tarixi şəxsiyyət olan Heydər Əliyevin müəllim peşəsini yüksək dəyərləndirdiyini xatırladaraq müəllimin cəmiyyətdə yerindən, müəllim nüfuzunun təlim-tərbiyədə aparıcı amil olmasından, milli-mənəvi dəyərlərin qorunmasında pedaqoji kadrların rolunun əvəzedilməzliyindən danışdı:

- Müəllimlərimiz istər nəzəri biliklərə, istərsə də təcrübəyə əsaslanıb yeni pedaqoji-metodiki üsul və vasitələrdən bəhrələnməklə kursantlarımızın hərbi-elmi biliklərə dərindən yiyələnmələrini təmin edirlər. İftixar hissi ilə qeyd etməyi lazım bilirəm ki, ordu quruculuğunda bizim də xidmətlərimiz var. İnanıram ki, müəllimlərimiz bundan sonra da Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərişlərini tam məsuliyyəti ilə yerinə yetirəcəklər.



Məktəb rəisinin müavini - tədris şöbəsinin rəisi polkovnik Mübariz Rzayev professor-müəllim heyətini məktəb rəisinin adından təbrik edərək onlara uğurlar arzuladı.

Məktəb rəisinin əmrinə əsasən, fərqlənən müəllimlərə qiymətli hədiyyə, fəxri fərman təqdim olundu.

Tədbir konset proqramı ilə başa çatdı.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Hüquq guşəsi*

# Soruşun, cavab verək



***- Silahlı Qüvvələrdə hərbi xidmət keçərkən dövlət hesabına hansı hallarda və qaydada daimi mənzil ala bilərəm?***

- Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları dövlət vəsaiti hesabına mənzillə təmin olunurlar. Bununla bağlı komissiya yaradılmışdır. Komissiya tərəfindən hərbi qulluqçuların qüsursuz hərbi xidmət müddəti, döyüş əməliyyatlarında iştirakı, hərbi rütbəsi, tutduğu vəzifənin xüsusiyyətləri, ailə üzvlərinin sayı, yaşayış şəraiti nəzərə alınmaqla müvafiq siyahı hazırlanır və müvafiq qərar qəbul edilir.

***- Dinc dövrdə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara hansı növ məzuniyyətlər verilir?***

- növbəti məzuniyyət;
- qısamüddətli məzuniyyət;
- xəstəliyə görə məzuniyyət;
- tədris-təlim zamanı məzuniyyət;
- hərbi təhsil müəssisəsini bitirmək ilə əlaqədar məzuniyyət;
- tədris məzuniyyəti;
- yaradıcılıq məzuniyyəti;
- qadın hərbi qulluqçulara hamiləliyinə və doğuşa görə, üç yaşı tamam olanadək uşağa qulluq etmək üçün məzuniyyətlər;
- əlavə məzuniyyət.

Hərbi qulluqçulara məzuniyyət vermək hüququ hərbi hissə komandirinə (əmr vermək hüququ olan tabor (3-cü dərəcəli gəmi) komandirinin intizam hakimiyyətindən istifadə edən əlahiddə hissə komandirindən, onlara bərabər və onlardan yuxarı olanlara) aiddir. Məzuniyyətə getmək və məzuniyyətdən qayıtmaq hərbi hissə üzrə əmrlə elan olunur.

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

# VI Dünya Oyunlarında Azərbaycan cüdoçuları daha üç medal qazanıb

***Koreya Respublikasının Munqyeonq şəhərində keçirilən hərbçilərin VI Dünya Oyunlarında Azərbaycan cüdoçuları daha üç medal qazanıb.***




Oyunlarda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüqar Şirinli ilk görüşündə ermənistanlı Qarik Harutunyanı ipponla məğlub edib. Ardından o, indoneziyalı və koreyalı rəqiblərini də üstələyərək finala yüksəlib. Həlledici görüşdə Azərbaycan cüdoçusu braziliyalı Felipe Eyci Kitadaya uduzaraq gümüş medal qazanıb.

Yarışda 66 kiloqram çəkidə yarışan Nicat Şıxəlizadə qətərli, qazaxıstanlı və cənubi koreyalı rəqiblərinə qalib gəlsə də, yarımfinalda misirli Əli Eyd əl-Yusifiyə məğlub olaraq bürünc medal uğrunda təsəlliverici görüşə qatılıb. O, həmin qarşılaşmada əlcəzairli Bilal Lunauçiyə qalib gələrək üçüncü olub.

73 kiloqram çəkili Hüseyn Rəhimli isə çinli, çilili və fransalı rəqiblərinə qalib gəlib. Yarımfinalda cənubi koreyalı Yunq Min Liyə məğlub olaraq təsəlliverici görüşdə iştirak edib. Bu döyüşdə isə idmançımız monqolustanlı Tumennasan Erdenetoqtoxu məğlub edərək üçüncü yeri tutub.

Xatırladaq ki, bundan əvvəl Vüqar Şirinli, Nicat Şıxəlizadə, Hüseyn Rəhimli, Elmar Qasımov və Tural Safquliyevdən ibarət yığma komanda yarışında bürünc medal qazanıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



## “Bayrağımız - milli qürurumuzdur”

Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı

# müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat
II yer - 150 manat
III yer - 100 manat

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan yığması son oyununda böyük hesabla qələbə qazanıb



Futbol üzrə 17 yaşadək qızlardan ibarət Azərbaycan yığması Avropa çempionatının ilkin seçmə mərhələsində oktyabrın 4-də son oyununu keçirib. AFFA-dan bildiriblər ki, Gürcüstan komandası ilə qarşılaşan yığmamız böyük hesabla qələbə qazanıb - 5:0. Merve Özdemirin hettrik etdiyi qarşılaşmada hərəyə bir dəfə Dilgə Uyğun və Gültac Məmmədəliyeva fərqləniblər. Komandamız 3 xalla qrupda 3-cü yeri tutub. Birinci yerdə Belçika (9 xal), ikinci pillədə isə Çexiya (6 xal) qərarlaşıb. Gürcüstan komandası oyunları 0 xalla qrupun dördüncü pilləsində başa vurub.

## Rusiyalı qrossmeyster Sergey Karyakin Bakıda keçirilən dünya kubokunun qalibi olub




Rusiyalı qrossmeyster Sergey Karyakin Bakıda keçirilən şahmat üzrə dünya kubokunun qalibi olub. Finalda həmyerlisi Pyotr Svidlerlə qarşılaşan Sergey Karyakin hesabda geridə olmasına baxmayaraq, yekunda qalib gəlməyi bacarıb. Dörd klassik görüşdən sonra hesab bərabər olduğu üçün (2:2) oktyabrın 5-də hər iki şahmatçı mübarizəni tay-brekdə davam etdirib. Rəqiblər tay-brekdə hərəyə bir dəfə qələbə qazandığından 25+10 vaxt nəzarəti rejimində iki oyun keçirməli olublar. Bu qarşılaşmalarda da qalib müəyyənləşməyib - 1:1. Qalibi müəyyən etmək üçün 10+10 vaxt nəzarəti rejimində oynanılan növbəti iki partiyada da şahmatçılar hərəyə bir dəfə qalib gəliblər. Dünya kubokunun qalibi 5+3 vaxt nəzarəti rejimində oynanılan görüşlərdə müəyyən edilib. Hər iki partiyanı qələbə ilə başa vuran Sergey Karyakin Bakıda keçirilən şahmat üzrə dünya kubokunun qalibi adını qazanıb.

## Azərbaycan gimnastı Tokioda “AEON Cup - 2015”-in bürünc medalını qazanıb



Oktyabrın 4-də Tokioda bədii gimnastika üzrə "AEON Cup - 2015" klublararası dünya çempionatı başa çatıb. Ənənəvi çempionatda 23 klub iştirak edib. Hər bir komanda üç gimnast, o cümlədən iki senyorka və bir yuniorka ilə təmsil olunub. Yarışmanın yekunlarına görə, Azərbaycanın Marina Durunda, Ayşən Babayeva və Jalə Piriyevadan idarət "Ocaq Sport Club" komandası beşinci yeri tutub. Rusiyanın "Qazprom" komandası birinci, Ukraynanın "Deryuginlər məktəbi" komandası ikinci, Belarusun "Dinamo" komandası isə üçüncü yerdə qərarlaşıblar. Budəfəki çempionatda da fərqlənən yuniorka Jalə Piriyeva bürünc medal qazanıb. O, ip, halqa, top və gürz ilə yaddaqalan çıxışlarına görə hakimlərdən yüksək ballar alıb.

## Para-taekvondo üzrə milli komandamız Dünya Oyunlarında 4 qızıl və 1 bürünc medal qazanıblar



Rusiyanın Soçi şəhərində IWAS versiyası üzrə fiziki qüsurluların Dünya Oyunları başa çatıb. İdmanın oxatma, güləş, yüngül atletika, üzgüçülük, stolüstü tennis növləri üzrə keçirilən oyunlarda para-taekvondo yarışları da yer alıb. "G4" kateqoriyalı yarışlara altı idmançı ilə qatılan para-taekvondo üzrə milli komandamız 4 qızıl və 1 bürünc medal qazanmaqla növbəti uğura imza atıb. Turnirdə 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Nicat Müslümov, eləcə də Namiq Abbasov (61 kq), Rövşən Qəhrəmanlı (61 kq) və Aynur Məmmədova (58 kq-dan yuxarı) yarışın qalibi olaraq qızıl medal qazanıblar. Aleksandr Polişuk (75 kq-dan yuxarı) isə yarımfinalda məğlub olaraq bürünc medalla kifayətlənib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 804
Nüsxə 4710